# Azərbaycanda dövlətçilik fəaliyyətinin mühüm istiqaməti - insan haqları...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

**İnsan hüquqları yalnız dövlətin əsas rol oynadığı sistemdə müəyyən təminat verən amillər olduqda ardıcıl və tam şəkildə həyata keçirilən mühüm xüsusiyyətlərə malikdir. Subyektiv hüquq və azadlıqların, qanunla qorunan mənafelərin müdafiəsinin əsas forması müdafiənin məhkəmə formasıdır.**



Məhkəmə müdafiəsi hüququ insanın konstitusion hüquqlarından biridir, bütün digər hüquqlardan fərqli olaraq, müdafiənin son dərəcə vacib ilkin şərti və bütün digər insan hüquqlarının təminatı elementidir. Bütün bunlardan aydın olur ki, insan hüquq və azadlıqlarının təmin edilməsində dövlət hakimiyyəti həlledici rol oynayır.

**Yerli qanunvericilik bazası beynəlxalq hüquq sisteminə uyğunlaşdırılır**

Nəzərə alınması daha bir vacib məqam odur ki, müasir dünya inkişafının ümumi tendensiyalarından biri də dövlətlərin qarşılıqlı asılılığının güclənməsi, əməkdaşlığının inkişafı, beynəlxalq münasibətlərin intensivləşməsidir. Bu, hüquq sistemlərinin qarşılıqlı əlaqəsini və yaxınlaşmasını, üstəlik, onların bir-birinə nüfuz etməsini, bəzi sistemlərdə digərlərində aparıcı olan elementlərin tətbiqini tələb edir. Həmçinin beynəlxalq hüquq normalarının həm qlobal, həm də milli səviyyədə həyata keçirilməsi mexanizmində təkmilləşmə var ki, bunsuz hər ikisinin normal fəaliyyəti mümkün deyil.

Dövlətlərin qarşılıqlı əlaqəsi milli hüquq sistemlərinin həm bir-birinə, həm də beynəlxalq hüquq sisteminə uyğun olmasını tələb edir. Bundan əlavə, bu gün beynəlxalq birlik hüququnun formalaşması prosesi gedir ki, onun xarakterik əlaməti bütövlükdə beynəlxalq birliyin maraqlarının təmin edilməsilə bağlıdır. Prosesdə Azərbaycan da fəal iştirak edir, öz qanunvericiliyini insan haqlarının müdafiəsi sahəsində daha təkmil formaya gətirir. İnsan hüquq və azadlıqlarına hörmət dövlət münasibətlərinin əsaslarını müəyyən edən müasir beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərindən biri kimi çıxış edir. Eləcə də insan hüquqlarına hörmət və riayət edilməsi bu gün dünya birliyinin qarşısında duran ən mühüm vəzifələrdəndir. İnsan hüquqları universaldır və buna görə də vahid humanitar hüquqi məkanın formalaşmasına töhfə vermək vacibdir. Bu istiqamətdə də Azərbaycan üzərinə düşən missiyanı layiqincə yerinə yetirir. O da xüsusi qeyd edilməlidir ki, Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olnub. Bundan irəli gələrək insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirilir. Ölkəmiz insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxıb və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə edib. İnsan hüquqları fərdin hüquqlarıdır, ona görə də insan sosial münasibətlərin iştirakçısı kimi hansı dövlətdə və ya ərazidə yaşamasından asılı olmayaraq eyni universal hüquqlara malikdir. İnsan hüquq və azadlıqlarının müdafiəsi, ilk növbədə, dövlətlə fərd münasibətlərini doğurur. Ona görə də insan hüquq və azadlıqlarının müdafiəsi məsələsində münasibətlər əsasən dövlətdaxili münasibətlərdir. Bu da o deməkdi ki, Azərbaycan dvləti öz vətəndaşları ilə yamnaşı, ölkəmzidə olan əcnəbilərin də hüquqlarının müdaiəsi sahəsində genişmiqyaslı fəaliyyət həyata keçirir. Azərbaycan dövlətinin yanaşması bundan ibarətdir ki, hüquqların həyata keçirilməsi məsələləri təkcə hansısa ölkənin suveren ixtiyarının predmeti deyildir, bu məsələlərə digər dövlətlər və müvafiq beynəlxalq təşkilatlar öz səlahiyyətləri daxilində beynəlxalq hüquq əsasında baxa bilərlər. Məsələyə belə yanaşma Azərbaycanın insan hüquqlarının müdafiəsinə verdiyi yüksək dəyərin təzahürüdür.

**Qarabağda qalan ermənilər üçün tarixi fürsət**

Azərbaycanın bu yanaşmasına diqqət etməli olan tərəflərdən biri Qarabağda qalan ermənilərdir. Onlar bilməlidir və əslində bilirlər ki, beynəlxalq hüquqda təsbit olunmuş insan hüquq və azadlıqlarına hörmət prinsipləri Azərbaycan dövləti üçün qanuni maraq kəsb edir. Fakt budur ki, onların hüquq və azadlıqlarını qorumaqda Azərbaycan dövlət maraqlı tərəfdir.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı Prezident İlham Əliyev bu xüsusda qeyd edib: "Biz hamımız regionda vəziyyətə iki istiqamətli yanaşmanın zəruri olmasını başa düşürük. Birincisi, Azərbaycanla Ermənistan arasında sülh danışıqları istiqaməti, ikincisi, Azərbaycanın Qarabağdakı erməni əhalisi ilə əlaqələri… Azərbaycanda erməni əhalinin olduğu Qarabağ rayonu var. Beləliklə, bu, iki istiqamətli həll faktiki olaraq bizim Ermənistanla danışıqlarımızı Qarabağdakı ermənilərlə əlaqələrimiz kimi daxili məsələlərimizdən ayırır. Həmçinin bizim beynəlxalq tərəfdaşlarımızla razılaşdırılıb ki, Qarabağdakı erməni azlığın hüquqları və təhlükəsizliyi ilə bağlı müzakirələr aparılacaq. Biz bunu etməyə hazırıq... Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq". Azərbaycan bəyan edir ki, hüquq və azadlıqlar cəmiyyətdə mövcud ola və inkişaf edə bilər. bu mənada Qarabağ ermənilərinin AZərbaycan cəmiyyətinə inteqrasiyası onların öz gələcək inkişafları baxımından mühümdür. Azərbaycan dövlət hər bir fərdin, o cümlədən Qarabağdakı erməni əsilli vətəndaşlarının hüquqları həyata keçirilməsini təmin etməyə hazırdır. Dövlət öz vətəndaşlarını bütün hüquqları ilə təmin etmək istiqamətində genişmiqyaslə fəaliyyət həyata keçirir. Qarabağda yaşayan erməni əhalisinin hüquq və təhlükəsizliyi Azərbaycan Konstitusiyası və qanunları əsasında ölkəmizin daxili işidir, milli suverenlik məsələsidir. Azərbaycan bu məsələni nə Ermənistan və nə də digər dövlətlə və təşkilatla müzakirə etmək fikrində deyil. Bunu Qarabağda qalan ermənilər də qəbul edib, Azərbaycan cəmiyyətinə inteqrasiya istiqamətində əməli addımlar atmalıdırlar.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**